

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 74 (20.975)

24 aprel 2014-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymətі 20 qəpik

## Rəsmi xronika



Aprelin 23-də Heydər Əliyev Beynəlxalq Aeroportunun yeni aerovağzal kompleksinin açılışı olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri açılış mərasimində iştirak etmişlər.

Prezident İlham Əliyev Heydər Əliyev Beynəlxalq Aeroportunun yeni aerovağzal kompleksinin rəmzi açılışını bildirən lenti kəsdi.

Prezident İlham Əliyev mərasimdə çıxış etdi.

Sonra dövlətimizin başçısı yeni aerovağzal kompleksi ilə yaxından tanış oldu.

Heydər Əliyev Beynəlxalq Aeroportunun yeni aerovağzal kompleksinin ilk sərnişinləri – Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 23-də Çex Respublikasının paytaxtı Praqaya yola düşdülər.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 23-də Çex Respublikasına işgüzar səfərə gəlmişdir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 23-də Çex Respublikasının Deputatlar Palatasının sədri, Çexiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Yan Hamaçek ilə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişafından məmnunluq ifadə olundu. Parlamentlərarası əlaqələrin daha da genişlənməsinin Azərbaycan-Çexiya əməkdaşlığının inkişafına töhfə verdiyi bildirildi.

Söhbət zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı.

## Akademik Zərifə xanım Əliyevanın anadan olmasının 91-ci ildönümünə həsr edilmiş tədbir keçirilmişdir

Culfa Rayon Mərkəzi Xəstəxanasında görkəmli oftalmoloq-alim, Əməkdar elm xadimi, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 91-ci ildönümünə həsr edilmiş tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə xəstəxananın baş həkimi Məmməd Ağayev açaraq akademik Zərifə xanım Əliyevanın Azərbaycan oftalmologiya elminə verdiyi töhfələrdən danışmışdır.

Xəstəxananın göz həkimi Məmməd Məmmədov çıxış edərək bildirmişdir ki, geniş dünyagörüşü, dərin tədqiqatçılıq bacarığı, yüksək ziyalılığı ilə hamının rəğbətini qazanmış bu fədakar alimin ömür yolu hər bir Azərbaycan vətəndaşı, hər bir elm adamı və tibb işçisi üçün həyat və mənəviyyat, kamillik və müdriklik məktəbidir.

Bildirilmişdir ki, akademik Zərifə xanım Əliyeva 160-dan çox elmi əsərin, 10 monoqrafiyanın, 12 səmərələşdirici təklifin, dərs vəsaitlərinin müəllifidir. Görkəmli alim gənc nəslin təlim-tərbiyəsində, yüksəksəviyyəli həkim-oftalmoloqların, professional elmi kadrların yetişdirilməsində böyük xidmətlər göstərmişdir. Bütün bu xidmətlərinə görə görkəmli oftalmoloq-alim Azərbaycanın əməkdar elm xadimi fəxri adına, oftalmologiya elminin inkişafı naminə əldə etdiyi nailiyyətlərə, görmə orqanının peşə patologiyası sahəsində apardığı uğurlu elmi-tədqiqat işlərinə görə SSRİ Tibb Elmləri Akademiyasının akademik M.Averbax adına mükafatına layiq görülmüşdür.

Sonra görkəmli oftalmoloq Zərifə xanım Əliyevanın əsərlərindən ibarət sərgiyə baxış olmuşdur.

✍ Muxtar MƏMMƏDOV

## Səhiyyə işçiləri muxtar respublikanın 90 illiyini qeyd edirlər

***Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyi çərçivəsində aprelin 25-də Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Naxçıvanda səyyar kollegiya keçirməsi nəzərdə tutulmuşdur. Kollegiyadan əvvəl Bakıda fəaliyyət göstərən klinika və xəstəxanaların bir qrup heyəti aprelin 23-də Naxçıvana gəlmişdir.***

Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru Nazim Qasımovun rəhbərlik etdiyi 13 nəfərlik heyət ilk gündən ixtisaslarına uyğun müvafiq xəstəxanalarda fəaliyyətə başlamışdır. Əsas məqsəd yerli həkimləri tibb elminin aktual problemləri barədə məlumatlandırmaq, onların yeni müayinə və müalicə üsulları barədə biliklərini təkmilləşdirməkdən ibarətdir. Heyətdə təmsil olunan yüksəkixtisaslı həkimlər Diaqnostika-Müalicə Mərkəzində cərrahiyyə, Mərkəzi Uşaq Xəstəxanasında pediatriya, Naxçıvan Şəhər Poliklinikasında terapiya, Doğum Mərkəzində ginekologiya, Psixi Xəstəliklər Dispanserində nevrologiya və psixiatriya, Kardioloji Mərkəzdə isə kardiologiyanın aktual problemlərinə dair mühazirələr oxumuş, dinləyiciləri maraqlandıran sualları cavablandırmışlar.

Həkim briqadasına daxil olan bir qrup mütəxəssisin iştirakı ilə Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzində mürəkkəb cərrahiyyə əməliyyatı da həyata keçirilmişdir.

Akademik Mirqasımov adına Respublika Klinik Xəstəxanasının baş həkimi Telman İbadovun rəhbərlik etdiyi yüksəkixtisaslı həkim heyəti isə aprel ayının 23-dən Ordubad rayonunda növbəti humanitar aksiyaya başlamışdır. Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyi münasibətilə Ordubad Rayon Mərkəzi Xəstəxanasında təşkil olunan bu aksiya çərçivəsində ilk gün 352 pasiyent profilaktik tibbi müayinədən keçirilmiş, 3 nəfərin stasionar müalicəyə cəlb olunması üçün göstəriş verilmişdir. Cərrahi müdaxiləyə ehtiyacı olan 17 nəfər üzərində əməliyyat aparılmışdır.

Üç gün davam edəcək aksiyada 2 mindən çox müayinə və cərrahi əməliyyatın aparılması nəzərdə tutulmuşdur.

Aprelin 24-dən isə Azərbaycan Respublikası Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunun həkimləri muxtar respublikada humanitar aksiyalara başlayacaqlar.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Yeni internet saytının təqdimatı olub



Muxtar respublikada əmək bazarının tənzimlənməsi və əhalinin səmərəli məşğulluğunun təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrasına müvafiq olaraq, əmək bazarının tələblərinə uyğun təşkil olunan peşə kursları, ictimai işlər, habelə müəssisələrdə olan vakansiyalar barədə məlumatların işaxtaranlara çatdırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları və Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri tərəfindən internet saytı hazırlanıb.

Dünən [www.isaxtar.nmr.az](http://www.isaxtar.nmr.az) internet saytının təqdimat mərasimi keçirilib.

İnternet saytının istifadəyə verilməsindən sonra işaxtaran vətəndaşlar məşğulluq xidməti orqanlarına müraciət etmədən sayta daxil olmaqla vakansiyalar barədə məlumat əldə edə biləcəklər. Eyni zamanda təşkilati-hüquqi formasından asılı olmayaraq, muxtar respublikada fəaliyyət göstərən müəssisə və təşkilatlar, həmçinin fiziki şəxslər işçi axtarışı üçün internet saytında elanlar yerləşdirə biləcəklər.

Qeyd edək ki, bu tədbir işaxtaran vətəndaşların səmərəli məşğulluq təminatı üçün əlverişli şərait yaratmaqla bərabər, onların sosial müdafiəsinin gücləndirilməsinə də xidmət edəcəkdir.

✍ S.HƏSƏNOV

## Cəlilkənddə yeni quruculuq ünvanları

Şərur rayonundakı Cəlilkənddə yeni quruculuq tədbirlərinə başlanılıb. Bu tədbirləri Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Şərur Rayon İdarəsinin inşaatçıları həyata keçirirlər. Quruculuq tədbirlərindən biri yazıçı-dramaturq Cəlil Məmmədquluzadənin bu kənddəki fəaliyyətini yaşatmaq məqsədilə yaradılmış muzey üçün yeni bina inşa olunmasıdır. Məlumat üçün bildirək ki, mövcud muzey binası sökülərək müasir arxitektura üslubunda tikilmiş yeni binada əsas inşaat işləri başa çatdırılıb. Hazırda muzeyin daxilində işlər davam etdirilir.





Muzey binasına yaxın ərazidə isə xidmət mərkəzi inşa olunur. Burada sənaye, ərzaq, təsərrüfat malları, ətriyyat və ət satışı mağazaları fəaliyyət göstərəcək.

Kənd mədəniyyət evinin binası da yenidən qurulur.

İdarədən aldığımız məlumata görə, inşaatçılar yaxın günlərdə Şərur şəhərinin Nəriman Nərimanov küçəsindəki 18 mənzilli yaşayış binasının yenidən qurulmasına başlayacaqlar. Yeni layihəyə əsasən, binanın mənzil sahəsinin artırılması nəzərdə tutulub.

Məlumat üçün bildirək ki, rayonun Diyadin və Kürkənd yaşayış məntəqələrində də kompleks quruculuq tədbirləri həyata keçirilir.

## Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsi üçün yeni bina tikilir



Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin maddi-texniki bazasının gücləndirilməsi, nazirliyin və onun struktur qurumlarının iş şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür. Bu gün muxtar respublikada fövqəladə hadisələrin baş verməđən qarşısının alınması, yaşayış məntəqələrinin və əhalinin təbii və texnogen hadisələrdən qorunması diqqət mərkəzində saxlanılır. Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq, Sədərək Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsi üçün yeni bina tikilir. Bundan başqa, ərazidə yeraltı ehtiyat su hovuzu, texnika parkı və təlim qülləsi inşa olunur.

Qeyd edək ki, binanın yerləşdiyi ərazi rayonun yaşayış məntəqələri istiqamətində şəxsi heyətin və avtomobillərin hərəkətinin təşkilinə uyğun seçilib. Burada yanğınsöndürmə xidmətinin fəaliyyətinin təmin olunması üçün hər cür şərait yaradılacaq.

## POS-terminalların quraşdırılması davam etdirilir



Babək Rayon Vergilər Şöbəsindən aldığımız məlumata görə, POS-terminalların quraşdırılması və istifadəsi, nağdsız ödənişlərin üstünlükləri ilə bağlı səmərəli nəticələr əldə etmək üçün şöbə tərəfindən vergi ödəyiciləri, vətəndaşlar arasında maarifləndirmə tədbirləri davam etdirilir. Bunun da nəticəsində sahibkarlar və istehlakçılar arasında bu qəbildən terminallara maraq artıb. Son dövrlər rayon ərazisində fəaliyyət göstərən əhalinin daha çox müraciət etdiyi 23 obyektdə 29 POS-terminal quraşdırılıb, 18 pərakəndə ticarət, ictimai-iaşə obyektində POS-terminalların quraşdırılması üçün vergi ödəyicilərinə xüsusi proqram vasitəsilə avtomatik olaraq elektron formada bildirişlər göndərilib. Nəticədə, onların 18-i POS-terminalların quraşdırılması üçün sənədlərini müvafiq bank idarəsinə təqdim ediblər. Yaxın vaxtlarda bu ödəyicilərin müraciəti təmin olunacaq və bu obyektlərdə POS-terminallar quraşdırılacaq.

**Xəbərlər şöbəsi**

# Müasir inkişafımız ekoloji təmiz su ilə təminata zəmanət verir

***Suyun yaradılışın vacib ünsürlərindən biri olduğunu bu gün kiməsə sübut etməyə ehtiyac yoxdur. Harada su varsa, orada həyat var. Bu təbii nemət insanların ehtiyaclarını ödəyən meyarlar içərisində ön sırada gəlir. Hələ uzaq keçmişdən insanoğlu harada bir su mənbəyi – bulaq, çeşmə, kəhrizlə qarşılaşıbsa, orada yurd-yuva salmışdır. Muxtar respublikamızda mövcud olan kəndlərin yerləşmə prinsiplərində ən başlıca səbəb su mənbələrinin yaxınlıqda olmasıdır. Zaman keçdikcə insanoğlunun suya ehtiyacı daha da artmış, ondan bir çox məqsədlər üçün istifadə olunmasına zərurət yaranmışdır. İndi sudan yalnız əkin sahələrini suvarmaq, içmək və ya təmizlik məqsədilə istifadə edilməsini düşünmək sadəlövhlük olardı. Müasir həyatda insanlar ondan həm də elektrik enerjisi almaq, müxtəlif dərman preparatları hazırlamaq və sair məqsədlər üçün istifadə edirlər. Buna görə də təbii su ehtiyatlarının bərpası, ondan səmərəli istifadə edilməsi dövrün ən aktual məsələlərindən birinə çevrilmişdir.***

Hamımıza yaxşı məlumdur ki, sakini olduğumuz Naxçıvan Muxtar Respublikası quru-kontinental iqlimə malikdir. Müxtəlif dövrlərdə olduğu kimi, müasir dövrdə də bəzən illik yağıntının az olması burada mövcud olan su mənbələrindən səmərəli və qənaətlə istifadə olunmasına zərurət yaradır. Nəzərə alaq ki, bu mənbələr illər keçdikcə təbii və texniki çirklənmələrə də məruz qalır. Ancaq etiraf etmək lazımdır ki, uzun illər bu sahədə müsbət nəticələrə nail olunmamış, su təminatı ilə bağlı məsələlər öz həllini tapmamışdır. Doğrudur, hələ keçmiş zamanlardan kəhrizlər qazdırmaq, yaşayış məntəqələrinə su xətti çəkdirmək bu qədim diyarın xeyirxah insanlarının savab əməllərindən sayılsa da, geniş həcmdə bu ehtiyacı ödəmək mümkün olmamışdır. Bu gün muxtar respublikamızda əhalinin həm içməli, həm də təsərrüfat suyuna olan tələbatının ödənilməsində mühüm layihələr həyata keçirilir. Bu sahədə görülən işlərin maraqlı tərəfi isə bundan ibarətdir ki, həyata keçirilən tədbirlərə kompleks yanaşma tətbiq edilir.

Qeyd edək ki, qədim Naxçıvan diyarı tarixi abidələri ilə yanaşı, həm də kəhrizləri ilə tanınmışdır. Tarixin müxtəlif dövrlərində bu diyarda yaşamış xeyriyyəçi insanlar tərəfindən kəhriz quyuları qazdırılmış və həmin kəhrizlər əhalinin içməli suya olan tələbatını qismən ödəmişdir. Qədim kəhrizlərə muxtar respublikanın bütün bölgələrində rast gəlmək mümkündür. Ancaq zaman keçdikcə bu kəhrizlər müxtəlif səbəblər üzündən baxımsız vəziyyətə düşmüşdür. Məhz belə bir vəziyyətdə muxtar respublikada kəhrizləri bərpa etməyə yönəlmiş layihələr, həm də bu layihələrə tətbiq edilən elmi yanaşma bu sahədə müsbət nəticələrin əldə edilməsinə səbəb olmuş, neçə-neçə kəhriz yenidən insanların içməli suya olan ehtiyacını ödəməyə davam etmişdir. Digər maraqlı, həm də qürurverici işlərdən biri odur ki, ölkəmizdə ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasında Kəhrizlər İdarəsi yaradılmış və Azərbaycan miqyasında ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasındakı kəhrizlərin coğrafi yayılması xəritəsi işlənmişdir. Mövcud peyk geodeziyası əsasında GPS sistemindən istifadə edilməklə tərtib edilən elektron xəritə vasitəsilə kəhriz sistemlərinin üçölçülü koordinatlarının alınması həyata keçirilmişdir. Ötən il adıçəkilən idarə tərəfindən 15 kəhrizdə təmir-bərpa işləri aparılmış, təmir işləri cari ildə də davam etdirilir. Muxtar respublikada su təsərrüfatı sahəsində görülən işlər kəhrizlərlə məhdudlaşmır. Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin 2013-cü ildə həyata keçirdiyi tədbirlərə nəzər salsaq, görərik ki, ötən il 179,7 kilometr beton və torpaq kanallar, 110,5 kilometr kollektorlar, 493,5 kilometr ara arxları təmir edilərək işlək vəziyyətə salınmışdır. 6,3 kilometr kaptaj və drenaj tikilmiş, 930 metr kaptaj təmir olunmuşdur. 46,1 kilometr uzunluğunda içməli su xətti, 24,1 kilometr yeni təzyiqli boru xətti çəkilmişdir. Bütün bunlarla yanaşı, bu gün Naxçıvan Muxtar Respublikasında yeni hidrotexniki qurğuların tikilməsi və mövcud qurğularda yenidənqurma işlərinin aparılması da diqqət mərkəzində saxlanılır. Məsələn, ötən əsrin 60-cı illərindən istismar olunan Uzunoba Su Anbarının yenidən qurulmasına başlanılmışdır.

Muxtar respublikada aparılan meliorativ tədbirlərlə yanaşı, mövcud su resurslarından istifadə olunaraq əhalinin ekoloji cəhətdən təmiz və dayanıqlı içməli su ilə təmin edilməsi istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir. Hazırda Naxçıvan şəhərində və rayon mərkəzlərində istehlakçıların tələbatına uyğun içməli su və kanalizasiya sistemləri qurulur, bu sahədə müasir infrastruktur yaradılır. Bu istiqamətdə həyata keçirilən tədbirlərin nəticəsidir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin regiona növbəti səfəri zamanı Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksi istifadəyə verilmişdir. Ötən əsrin 60-70-ci illərində qurulmuş Naxçıvan şəhərinin içməli su sistemi, təbii ki, uzun müddət istismar olunduğundan əhalinin keyfiyyətli içməli suya olan tələbatını ödəmirdi. Buna görə də muxtar respublikanın paytaxtı Naxçıvan şəhərində və rayon mərkəzlərində içməli su və kanalizasiya sistemlərinin yenidən qurulmasına başlanılmışdır. Artıq Naxçıvan şəhərində və rayon mərkəzlərində tikinti işlərinin əsas hissəsi başa çatdırılmışdır. Yeni istifadəyə verilmiş kompleks Naxçıvan şəhərində 90 minə yaxın əhalini və sənaye obyektlərini gələcək perspektiv nəzərə alınmaqla fasiləsiz olaraq ekoloji cəhətdən təmiz su ilə təmin etmək imkanı yaradır. Naxçıvan şəhərinin içməli su sisteminin yenidən qurulması tədbirləri çərçivəsində inşa edilmiş kompleksdə ən müasir avadanlıqlar quraşdırılmışdır. Təmizləmə prosesində xammal kimi ozon və duzdan istifadə olunması isə suyun insan sağlamlığı üçün yararlılığına tam zəmanət verir. Tikintisinə 2012-ci ildə başlanılan kompleksə sutəmizləyici qurğu, inzibati bina və su anbarları daxildir. Laboratoriyada quraşdırılan müasir avadanlıq suyun tərkibinə gündəlik nəzarət etməyə imkan verir. Kompleksdə yeni tətbiq olunan nanosüzgəcli qurğu, ənənəvi qum süzgəclərindən fərqli olaraq, sudakı bütün zərərli mikrobları tutaraq saxlayır. Bununla da, su təbii mineral tərkibi saxlanılmaqla təmizlənir. Nanosüzgəcdən keçən su içməyə tam yararlı olur və emal zamanı onun xlordan istifadə etməklə zərərsizləşdirilməsinə ehtiyac qalmır. Suyun sərfinə, təzyiqinə, elektrik keçiriciliyinə və bulanıqlılığına idarəetmə mərkəzində quraşdırılan kompüterlə nəzarət olunur və iş prosesi avtomatik idarə edilir. Eyni zamanda yeni tikilmiş və ümumi tutumu 25 min kubmetr olan 3 su anbarının inşası zamanı hündürlük fərqinin nəzərə alınması şəhərin su təchizatının özüaxımlı rejimdə təmin olunmasına imkan verir. Qeyd edək ki, Naxçıvan şəhərində su və kanalizasiya sistemlərinin yenidən qurulması tədbirlərinin cari ildə başa çatdırılması nəzərdə tutulmuşdur.

Bəli, dövlətimiz tərəfindən həyata keçirilən bütün bu tədbirlərin ana xəttində vətəndaş amili dayanır. Əhalinin rahat, təhlükəsiz, sağlam yaşayışını təmin etmək üçün atılan addımlar həm də təbii sərvətlərdən düzgün istifadə imkanlarını artırır. Muxtar respublikada son illər enerji təhlükəsizliyinin təmin edilməsi baxımından su elektrik stansiyalarının mövcud imkanlarından maksimum yararlanmaq, tarixin heç bir dövründə əkin sahələri kimi istifadə olunmayan ərazilərə su xətlərinin çəkilməsi, tarix və mədəniyyətimizi su kimi aydın təqdim edən kəhrizlərimizə doğma münasibət bizi həm də aydın sabahlara doğru aparır. Axı su həm də aydınlıqdır.

**✍ Səbuhi HƏSƏNOV**

---

*Kənd görüşləri*

# Yaz fəslinin elçisi – Kotam

Araz çayının axarı boyunca yol gedirdim: yan-yörəmdə yalçın qayalar, bu yerlərin yay vədəsində Günəş şüasından yanıb-yaxılmış cadar-cadar dağlar, quzeyində kırs bağlayan qar təpələri, güneyində sürü-sürü otlayan, bu qayadan o qayaya atılan, sıldırımları eyninə almayan dağ keçiləri, bir tərəfimdəsə şıltaq uşaq kimi atılıb düşən, bu sahildən o sahilə, o sahildən bu sahilə hay-küylə çırpınan Araz. Yolum Ordubadın bu istiqamətindəki sonuncu kəndi olan Kotamadır. Əlbəttə ki, sonuncu kənd deyil, ondan sonra Kilid gəlirdi, sonra Zərəni gəlirdi. İndi o kəndlərdə yaşayan yoxdur. Niyə yoxdur, səbəbini deyim: sovetlər dönəmində bu kəndlərdə elektrik, qaz, telefon yox idi, insanlar Allah ümidinə buraxılmışdılar. Ona görə də ailələrin yavaş-yavaş daha rahat yerlərə köçü başlandı. Amma Vətən Vətəndir. İndinin özündə yaşlılar yenə dədə-baba yurdlarına baş çəkirlər, çobanlar sürülərini, naxırçılar naxırlarını bu həndəvərlərdə otarırlar, cavanlar bayram tonqallarını bu dağlarda qalayırlar; çünkü torpaq unudulmazdır, torpaq müqəddəsdir. Bilmirəm, kotamlı Zabit Həsənov hardan gəlib yadıma düşdü. Kotam kəndinin kolxoz sədri idi. Lap yuxarıdan qərar gəlmişdi ki, Kotamın örüşlərinin bir qismini ayırıb versinlər ermənilərə. Yuxarıdan gələn qərarlara, göstərişlərə əməl etməməyə kimin hünəri vardı, danışıqsız-filansız imza atılmalı idi. Amma Zabit Həsənov bu qərara imza atmaqdan, qol çəkməkdən imtina elədi, hətta 3 gün öz kəndindən, ev-eşiyindən, ailəsindən qaçaq düşdü. Əvəzində nə oldu? Dedilər, o çəkməz, biz çəkərik, ermənilər də qol çəkdilər, bizim o vaxtkı məmurlar da qol çəkdilər. Zabit Həsənovun ürəyi buna tab eləmədi və dünyasını dəyişdi. Allah belə insanlarımıza rəhmət eləsin. Amin!

Kənddə "Kotam" sözünün mənasını kimdən soruşdumsa, başını buladı, yəni ki, bilmirəm. Amma kənd məktəbinin tədris işləri üzrə direktor müavini Cabir İsmayılov bu yazının ərsəyə gəlməsində mənə çox yardımçı oldu, dedi ki, araşdırmışam, qədim türk toponimlərinə görə, dağlar arasında qərar tutan yaşayış bölgəsi deməkdir. Nə dərəcədə həqiqətdir, deyə bilmərəm, o var ki, Kotam elə zirvəsinə baxanda papaq düşürən dağların arasında qərar tutan və çox da böyük olmayan bir kənddir. Burada evlər dağ döşlərinə sığınıb və hamısı da çay daşından, dağ daşından tikilib. Nədən ki, Naxçıvan kəndlərinin xeyli hissəsində möhrədən, çiy kərpicdən hörülən evlər burda əl verməz, yazın, payızın leysan yağışları, qışın qar-boranı, çovğunu belə evləri tez bada verər. Kotam 2 yerə ayrılır: qədim Kotam, yeni Kotam. "Qədim Kotam" adlanan ərazi (buna köhnə Kotam da deyirlər) Araz çayından xeyli aralıda idi. 1956-cı ildən başlayaraq sakinlər aşağı enməyə, nisbətən geniş torpaqlarda ev-eşik salmağa başladılar. Ətrafdakı dağ-daşı, dərəni-düzü hesablasaq, Kotamın 2550 hektar ərazisi var. Oxucu elə düşünməsin ki, bu 2550 hektar ərazi yararlı torpaqlardır, xeyr, əksəriyyəti sıldırım qayalar, dağlar, yay vaxtı Günəşin qızmarından yanıb-yaxılan təpələr, bozumtul dağ döşləridir. Yazda, payızda leysan yağışlarından coşub-daşan Gənzə çayının Kotam kəndinə bir zərrə qədər də xeyir-bəhrəsi yoxdur. Amma elə düşünməyin ki, kotamlılar sudan korluq çəkirlər, əsla yox. Əvvəla kəndin yuxarı hissəsi dağların döşündən süzülüb gələn şərbət kimi bulaqlardan bəhrələnir, faydalanır. Dədə-baba torpağımız olan Zəngəzur dağ silsiləmizin nə qədər əlçatmaz, quşqonmaz zirvələri Kotamı övlad kimi qoynuna alıb, bağrına basıb: Xorxat, Əlkar, Bəlgə, Dihin, Əcaha (bəlkə də, Əjdaha) və kotamlıların yüz illərdən, min illərdən üzübəri gələn ömür-günlərinə yazılan neçə-neçə belə dağları, zirvələri var.

Deyəsən, sözüm yarımçıq qaldı, yəni Kotamın ərazisi barəsindəki sözüm. Dedim ki, ərazi 2550 hektardır, bunun 2413 hektarı bələdiyyə torpaqlarıdır, 100 hektarı dövlət torpaqlarıdır, 19 hektarı xüsusi mülkiyyətdə olan torpaqlardır, 18 hektar da torpaq islahatı zamanı camaata verilən pay torpaqlarıdır. Və bu rəqəmlərin labirintində oxucu sual edə bilər ki, nə əcəb bələdiyyə özünə 2413 hektar götürüb, kənd adamına 18 hektar verilib? Əslinə qalsa, elə torpaqların hamısı kotamlılarındır, sadəcə olaraq, əkin-biçinə yararlı olanlar o qədərdir, qalanları, dediyim kimi, dağ-daşdır, az-çox da örüş sahəsidir. Bir halda ki, kənd adamının 250 başdan çox qaramalı, min başdan çox qoyun-quzusu, 800-900 arı ailəsi var, bu qədər var-dövləti 18 hektara necə sığıb-sığışdırmaq olar? Az qala bir məsələ də yadımdan çıxmışdı, Kotam kəndi 76 evdən, 125 təsərrüfatdan ibarətdir. 440 nəfər əhalisi var. İnsanlarının da əsas məşğuliyyəti əkinçilik, yəni bağçılıq, ondan sonra da heyvandarlıq, arıçılıqdır. Bəli, kəndin yuxarı hissəsi bulaq sularından istifadə edir, elə aşağı məhəllələr də həmçinin. Amma aşağı tərəfin həyət-bağçalarını suvarmaq üçün Araz çayı üzərində nasos stansiyası qurulub və bir sözlə, kotamlıların bir zərrə də olsun, nə əkin suyundan, nə də içməli sudan korluqları-filanları vardır. Belə olanda kotamlı təkcə mal-heyvan saxlamaqla, arıçılıqla məşğul olmur. Buranın özünəməxsus təbiəti var. Kotam dağlar arasına sığınan kənddir, yararlı torpağı da çox deyil, amma yararlı olanının qiyməti yoxdur. Məsələn, Ordubad bazarına gələn ordubadlı birinci Kotam əriyini, əncirini soruşacaq, ən çox da Kotam soğanını. Heç başqa meyvələri, tərəvəzləri də saydıqlarımdan geri qalmır. Hələ çöl-bayırında bitən şəfa bitkilərini bura qatmıram. Qurd dərəsi, Əsəri dərəsi, Uzun dərə, Dəmir dərəsi boyu gedəsən, çaşır, baldırğan, kəklikotu, yazağzı qazayağı, cacıq, Allah bilir, nələr-nələr səni məst edəcək. Kotamı qucaqlayan dağ-dərənin ətri, rayihəsi bir ayrı aləmdir. Elə buna görə də təbiətlə insanlar qol-boyundurlar, insanlar da təbiət kimi uzunömürlüdürlər. Məsələn, Şəhrud Qulamovun sinni 90-a yaxınlaşmaqdadır, Səkinə nənənin yaşı yüz biri keçib, bu yaşında da özünü idarə edir, nəvə-nəticələri ilə deyib-gülür. Budur dağ kəndinin ab-havasının öz övladlarına bəxş elədiyi ömür payı, ömür sovqatı. Bir məsələni də xüsusi olaraq oxucunun nəzərinə çatdırmalıyam. Yaz fəsli Ordubada elə bil birinci olaraq Kotamdan gəlir. Ərik ağacları ilk dəfə burda çiçəkləyir, meyvə birinci burdan bazara çıxır. Bu məqamda, təxminən, 40 il bundan irəli bu kənd barədəki yazımın bir cümləsi yadıma düşdü: Yaz fəsli sanki Bakı-Naxçıvan qatarı ilə bizə gəlir və bu yaz qatarını ilk olaraq Kotam kəndi qarşılayır.

Ordubad şəhərinin aşağı hissəsində bir qəsəbə də yaranıb – Şəhriyar qəsəbəsi. Bura ilə işim yoxdur, əlbəttə ki, bura özgə bir yazının mövzusudur, amma ona görə qəsəbənin adını çəkdim, biləsiniz ki, Sadiq Əliyev həm Şəhriyar qəsəbəsinin, həm də Kotamın icra nümayəndəsidir.

O, Kotamı əlinin içi kimi tanıyır, kimin nə qədər qoyun-quzusu, arı ailəsi, mal-heyvanı var, hamısını sənə əzbər desin. Soruşanda ki, kənddə arıçılıqdan baş çıxaran kim var, dedi, Anar Həsənlinin adını yaz. 80 arı ailəsi var, Sabir Fərəcovun adını yaz, Nazim Həsənovu yaz, nə bilim, bir deyil, iki deyil, üç deyil. Bir halda ki, 76 evlik Kotamda azından 800-900 arı ailəsi var, deməli, kotamlıların hamısı arıçıdır, ona görə də Ordubad bazarında lap çox Kotam balını arıyıb-axtarırlar.

Yazımızın bir yerində dedik ki, bir köhnə (qədim) Kotam var, bir də təzə Kotam. Qədim Kotamın sakinləri oranı, bir növ, dədə-baba yurd yeri kimi saxlayırlar, örüş-otlaqların çoxu ordadır, təzə Kotam isə ayrı aləmdir. Hamının evində qazı, suyu, telefonu, elektrik enerjisi, xülasə, şəhərdə nə varsa, kənddə də onun kimi. Hər gün iki dəfə avtobus marşrutu işləyir, neçə-neçə evdə şəxsi avtomaşın var. Daha nə sayım, klubu var, kitabxanası var, feldşer-mama məntəqəsi var.

Kotamda çox səliqə-sahmanlı məktəb binası da var. 110 şagird yerlik məktəb binasının hər cür yüksək şəraiti, elektron lövhəli sinfi var. Məktəbdə, hələlik, 41 uşaq oxuyur. Ötən dərs ilində məktəbi qurtaranlardan kim ali məktəbə qəbul üçün ərizə vermişdisə, demək olar ki, hamısı qəbul olunmuşdur. Tədris işləri üzrə direktor müavini Cabir İsmayılov kotamlıların dərsə, məktəbə, təhsilə olan həvəsindən ağızdolusu danışdı.

Xülasə, bu yazımda Kotamı nə göylərə qaldırmaq, nə dağlardan endirmək fikrindəyəm. Kotam dünyamızın min-min kəndlərindən biridir. Kənd özünün təmtərağı, mənəm-mənəm deyən aynabəndləri, çilçırağı, yolçunu yoldan edən bağ-bağçaları, nələri-nələri ilə ölçülüb biçilmir. Hər bir kənd özünün sakinləri, sahibləri, orda qərar tutub üzü minillərdən bəri məskən salıb yaşayan insanları ilə ölçülür, onların ədəb-ərkanları, dünyagörüşü, qonaqpərvərliyi, bir-birinə olan təmiz məhəbbəti ilə ölçülür. O qədər şan-şöhrətli kəndlər, şəhərlər var ki, saymaqla qurtarmaz, amma nə olsun, nə faydası, bir-birlərinin ölüsündən-dirisindən xəbər-ətərləri olmaz. Kotam isə mənim üçün bir kənd təsirini bağışlamadı. Kotam bir evdir – Arazın bu tayında göylərə meydan oxuyan dağların qoynuna sığınmış bütöv bir ev. Kotamlılar isə bu evin bəxtəvər ailə üzvləri.

Günəş hardan çıxır, harda batır, bunu qundaqdakı körpə uşaq da bilir, bu, əllaməlik deyil, amma yaz fəsli bizim tərəflərdə ilk dəfə Kotamda peyda olur. Ərik, şaftalı, gilənar, gilas, alça, armud ağacları ilk dəfə burda ağ, qırmızı, çəhrayı çiçəklərini açır. Kotam bu yerlərin yaz elçisidir. Əgər istəyirsinizsə, gedin, görün, Naxçıvanımızın daha bir füsunkar guşəsindən xəbərdar olun. Axı birinci özümüzü, öz yer-yurdumuzu tanımalıyıq: dünyanı tanımağa isə, Allah bilir, neçə ömür lazımdır?

**Nurəddin BABAYEV**
***Azərbaycan Respublikasının əməkdar jurnalisti***

# Yeni kitabların təqdimat mərasimi keçirilmişdir






*Aprelin 23-də Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində uşaq ədəbiyyatı silsiləsindən "Təmsillər", "Poema və pyeslər" və "Şeirlər və hekayələr" kitablarının təqdimat mərasimi keçirilmişdir. Mərasimdə Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Əliyev çıxış edərək keçirilən tədbirin məqsəd və mahiyyətindən danışmışdır.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov çıxış edərək demişdir ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin respublikamızda siyasi rəhbərliyə qayıdışı ilə milli-mənəvi dəyərlərin dirçəlməsinə, iqtisadiyyatın, sosial sahələrin inkişafına güclü stimul verilmiş, bununla bərabər, hər bir ölkənin gələcək inkişafında mühüm rol oynayan uşaqlara qayğı dövlət üçün prioritet məsələyə çevrilmişdir. Azərbaycan Respublikasının parlaq gələcəyi olan uşaqlara, böyüməkdə olan gənc nəslə son dərəcə qayğı ilə yanaşan ümummilli lider Heydər Əliyev deyirdi: ***"Uşaqlara qayğı hər bir Azərbaycan vətəndaşının müqəddəs borcudur. Uşağa qayğı göstərmək, uşaqları qorumaq, onları müdafiə etmək bizim vətəndaşlıq borcumuzdur".***

Ümummilli liderimiz Heydər Əliyevin yeni nəsil qarşısında qoyduğu vəzifələri həyata keçirmək üçün bu kursun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən bütün zəruri imkanlar yaradılmışdır.

Bildirilmişdir ki, uşaq, yeniyetmə və gənclərin hərtərəfli inkişafını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikasında da hər cür şərait yaradılmışdır. İstedadlı uşaq, yeniyetmə və gəncləri üzə çıxarmaq məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 30 may tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasında xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)", 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə isə "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı" qəbul edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında" 2012-ci il 31 yanvar tarixli Fərmanı ilə isə gənc istedadların "Qızıl kitabı" təsis edilmiş, 2013-cü ildə idman və musiqi sahəsində fərqlənən 3 nəfərin adı həmin kitaba yazılmışdır.

Muxtar respublikada bütün təbəqədən olan uşaqlar dövlət qayğısı ilə əhatə olunmuşlar.

Qeyd olunmuşdur ki, müasir dövrdə xalqımıza kamil, şüurca yetkin insanlar daha çox lazımdır. Belə insanların yetişdirilməsində uşaq ədəbiyyatının misilsiz əhəmiyyəti vardır. Bu baxımdan muxtar respublikamızda uşaq ədəbiyyatının inkişafına həmişə qayğı göstərilmişdir.

2010-cu ildə muxtar respublikada keçirilən Uşaqları Beynəlxalq Müdafiə Günündə çıxış edən Ali Məclisin Sədri uşaq ədəbiyyatının inkişaf etdirilməsinin vacibliyini vurğulayaraq demişdir: ***"Bu bir həqiqətdir ki, insanın dünyaya, ətraf aləmə və özünə münasibətinin təməli məhz uşaqlıq dövründə qoyulur. Bu yaşda oxunan folklor nümunələri, hekayə və şeirlər uşaq xarakterinin formalaşmasında əhəmiyyətli rola malikdir. Naxçıvan Muxtar Respublikasının Yazıçılar Birliyi uşaqlar üçün tərbiyəvi mövzuda yaradıcılıq məhsullarının hazırlanmasına diqqətlə yanaşmalı, muxtar respublikada uşaq ədəbiyyatının inkişafına qayğı göstərməli, yaradıcı ziyalıların qüvvəsini günün aktual məsələlərinin həllinə yönəltməlidir".***

Rəhman Məmmədov demişdir ki, uşaq ədəbiyyatının inkişafı ilə əlaqədar muxtar respublika rəhbərinin Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinə verdiyi tapşırığın icrası ilə bağlı bir sıra tədbirlər görülmüş, uşaq ədəbiyyatının inkişafı nəzarətə götürülmüşdür. Ötən müddət ərzində Ali Məclis Sədrinin himayəsi ilə "Uşaqlar və Günəş" almanaxı, "Gəncliyimiz – gələcəyimiz" kitabı çap olunmuş, "Naxçıvan" jurnalının bir nömrəsi uşaqlara həsr edilmişdir.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin 2012-ci ildə keçirilmiş konfransında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına uyğun olaraq tərtib edilmiş Tədbirlər Planına əsasən, uşaq ədəbiyyatı silsiləsindən "Təmsillər", "Poema və pyeslər", "Şeir və hekayələr" kitabları çap olunmuşdur. Qeyd olunan kitablarda mövcud olan şeir, hekayə, təmsil, poema və pyeslər böyüməkdə olan nəslin tərbiyəsində böyük əhəmiyyətə malik olmaqla balacaların vətənpərvərlik, humanizm, düşmənə nifrət, beynəlmiləlçilik ruhunda tərbiyəsində mühüm rol oynayacaqdır.

Sonra Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Aytən Məmmədova, Naxçıvan Dövlət Universitetinin müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru Kamal Camalov, AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun elmi işçisi Elxan Məmmədov çıxış edərək son illərdə muxtar respublikamızda uşaq, yeniyetmə və gənclərin hərtərəfli inkişafına göstərilən dövlət qayğısından danışmışlar.

Mərasimdə şeir, təmsil və hekayələrdən seçmələr bədii qiraət olunmuşdur.

Sonda tədbir iştirakçılarına yeni kitablardan paylanılmışdır.

✍ **S.ƏZİMOVA**

# Miqrasiya sahəsinə aid maarifləndirici tədbir

Miqrasiya sahəsi üzrə keçirilən maarifləndirmə tədbirlərinin növbəti ünvanı Şahbuz rayonu olub.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin şöbə rəisi İlqar Seyidovun, xidmətin əməkdaşlarından Kamil Cabbarovun, Kənan Məmmədovun, Samir Sadiqovun çıxışları olub.

Çıxışlarda iştirakçılara muxtar respublikada miqrasiya sahəsində həyata keçirilən kompleks tədbirlər barədə geniş məlumat verilib. Həmçinin tədbirdə Azərbaycan Respublikasında əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyətindən, həmin şəxslərin ölkə ərazisində müvəqqəti olma müddətlərinin uzadılmasından, müvəqqəti və daimi yaşamaq üçün icazələrin verilməsindən bəhs edilib.

Bundan başqa, ölkə ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün fərdi icazələrin alınması və müddətlərinin uzadılması, onların yaşayış yerləri üzrə qeydiyyata alınması prosedurları, miqrasiya sahəsində mövcud qanunvericiliyin tələblərinin pozulmasına görə məsuliyyət, miqrasiya ilə bağlı digər məsələləri tənzimləyən qanunvericilik aktları barədə də məlumatlar tədbir iştirakçılarının nəzərinə çatdırılıb.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb, onlara maarifləndirici bukletlər paylanılıb.

# Enerji ehtiyatlarından qənaətlə istifadə günün tələbidir

*Ordubad Rayon Prokurorluğu rayonun Gənzə kəndində maarifləndirici tədbir keçirib.*

Tədbirdə Ordubad rayon prokuroru, baş ədliyyə müşaviri Yusif Abdullayev "Enerji ehtiyatlarından qənaətlə istifadə olunmalıdır" mövzusunda çıxış edərək iqtisadi cinayətlər, xüsusilə təbii qazın, elektrik və istilik enerjisinin talanması cinayətlərinə görə cəzalar haqqında danışıb. Qeyd edilib ki, cinayət məsuliyyətinə təkcə sadə vətəndaşlar deyil, həm də təbii qaz, elektrik və ya istilik enerjisi təchizatı müəssisələrinin vəzifəli şəxs olmayan səlahiyyətli nümayəndələri də cəlb edilə bilər və bu da qanunun aliliyi baxımından daha məqsədəmüvafiqdir. Həmin təchizat müəssisələrinin səlahiyyətli nümayəndələri işə vicdansız və ya laqeyd münasibət nəticəsində xidməti vəzifəni yerinə yetirməməsi səbəbindən yuxarıda sadalanan cinayət əməllərinin qarşısını almırsa, onlar 3000 manatdan 4000 manatadək məbləğində cərimə və ya 2 ildən 4 ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırıla bilərlər.

Ordubad rayon prokurorunun köməkçisi, II dərəcəli hüquqşünas Zamin Nəzərəliyev çıxışında ətraf mühitin mühafizəsi əleyhinə yönəldilmiş inzibati xətalar və cinayətlər, bu sahədə xüsusi əhəmiyyətə malik olan balıqları və başqa su heyvanlarını qanunsuz tutma, qanunsuz ovetmə və qanunsuz ağackəsmə ilə müşayiət olunan əməllər haqqında, bu əməllərə görə cinayət və inzibati xətalar qanunvericiliyində nəzərdə tutulan cəzalar barədə tədbir iştirakçılarına məlumat verib.

Tədbir iştirakçılarını maraqlandıran suallar prokurorluq əməkdaşları tərəfindən cavablandırılıb.

*"Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin şagirdlərinin iştirakı ilə açıq dərs keçilib.*

# Naxçıvanqalada açıq dərs

"Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi tarixin yadigarıdır" mövzusunda keçilən açıq dərsdə məktəbin direktoru Sevinc Səfərova, tarix müəllimi Vəsilə Abbasova ölkəmizdə, eləcə də Naxçıvan Muxtar Respublikasında tarixi abidələrimizin bərpasına göstərilən dövlət qayğısından danışıblar. Qeyd olunub ki, tarixi abidələr Azərbaycanın uzaq keçmişinin zənginliyini təsdiq etməklə yanaşı, eyni zamanda xalqımızın milli pasportu hesab edilə bilər. Bu abidələr Azərbaycan xalqının minilliklər tarixini özündə yaşadan zəngin informasiya mənbəyi olmaqla bərabər, xalqımızın bu torpaqların köklü sakinləri olduğunu danılmaz faktlarla sübuta yetirir. Bu abidələrdən biri olan Naxçıvanqalanın bərpası, qalanın əvvəlki görkəminin özünə qaytarılması, burada "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması, ümumilikdə, Naxçıvanın tarixinin öyrənilməsi, tədqiqi və təbliği baxımından mühüm və tarixi addımdır. Naxçıvan şəhərinin, indiyə qədər qorunub saxlanılmış Naxçıvanqalanın tarixinin öyrənilməsi, maddi mədəniyyətimizin şah əsərlərindən biri olan bu qalanın qorunması və təbliği xüsusi əhəmiyyət kəsb edir. Bu mənada Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqında" 5 iyun 2013-cü il tarixli Sərəncamı təkcə tariximizin qorunması və təbliğinə deyil, həm də gələcəkdə milli kimliyimizin, bir millət kimi bu torpaqların əzəli və əbədi sakinləri olduğumuzun elmi dəlillərlə sübutuna xidmət edən mühüm dövlət sənədidir.

Sonra şagirdlər komplekslə yaxından tanış olublar.

# Ümumdünya Kitab və Müəllif Hüquqları Gününə həsr edilmiş konfrans



Dünən M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında Ümumdünya Kitab və Müəllif Hüquqları Gününə həsr edilmiş konfrans keçirilib.

Konfransı Naxçıvan Muxtar Respublika Kitabxanasının elmi işlər üzrə direktor müavini Rahilə Məmmədova açaraq tədbirin mahiyyətindən danışıb. O deyib ki, bu barədə qərar 1995-ci ildə Parisdə YUNESKO-nun Baş Konfransında qəbul edilib. 1996-cı ildən etibarən isə kitaba və müəlliflərə hörmət əlaməti olaraq bu gün bütün dünyada qeyd olunur.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı Əli Rzayev mövzu ilə bağlı məruzə edib. Məruzəçi bildirib ki, Azərbaycanın müəllif hüquq sisteminin yaradıcısı ümummilli lider Heydər Əliyevdir. Ölkəmizdə müəllif hüquq sisteminin fəaliyyətini tənzimləyən Müəllif Hüquqları Agentliyi ulu öndər Heydər Əliyevin uzaqgörənliyi sayəsində 1993-cü ildə Azərbaycanın ilk ixtisaslaşmış mərkəzi icra hakimiyyəti orqanı statusunda dövlət orqanı kimi yaradılıb. 1996-cı ildə əqli mülkiyyət üzrə ilk müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında qanun qəbul olunub, bununla da, ölkəmizin əqli mülkiyyət sistemi beynəlxalq sistemə qoşulub.

Qeyd olunub ki, sonrakı illərdə Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə müəllif hüquq sistemi dinamik şəkildə inkişaf etdirilib, qanunvericilik bazası müasir informasiya-kommunikasiya texnologiyalarının tələbləri səviyyəsində daha da təkmilləşdirilib, beynəlxalq standartlara uyğunlaşdırılıb. Prezident İlham Əliyevin 2005-ci il 30 avqust tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin yeni Əsasnaməsi təsdiq olunub. Hazırda agentlik 70-dək vəzifə və funksiyanı yerinə yetirir, ölkəmizdə əqli mülkiyyət sistemi sahəsinin daha da inkişaf etdirilməsi, kadrların peşəkarlığının artırılması istiqamətində tədbirlər həyata keçirir. Bu gün Azərbaycan əqli mülkiyyət üzrə ən zəngin milli qanunvericilik bazasına malik ölkələrdən biridir. Hazırda bilavasitə müəllif hüququ sahəsini tənzimləyən beş qanun fəaliyyətdədir. Ölkəmiz həmçinin müəllif hüquqları sahəsində geniş beynəlxalq əməkdaşlıq əlaqələri yaradıb. Son illərdə dövlətimizin başçısının rəhbərliyi ilə əqli mülkiyyət hüquqlarının təminatı və piratçılıqla mübarizə haqqında qanun qəbul edilib, əqli mülkiyyət hüquqlarının təminatı mərkəzi yaradılıb, agentliyin nəzdində qaynar xətt fəaliyyət göstərir.

Tədbirdə M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının əməkdaşları Yeganə Rüstəmova və Gülşən Allahverdiyevanın çıxışları olub.

Sonda tədbir iştirakçıları əlamətdar gün münasibətilə təşkil edilmiş sərgiyə baxıblar.

✍ **Sona MİRZƏYEVA**

# Naxçıvan Biznes Mərkəzində qısamüddətli kurslar təşkil olunub

Naxçıvan Biznes Mərkəzində muxtar respublikanın pərakəndə və topdansatış ticarət obyektlərində çalışan satıcıların mövcud ticarət qaydalarını öyrənməsi istiqamətində üzrə qısamüddətli təkmilləşdirmə kurslarına başlanılıb. On gün davam edəcək kurslarda satıcılar topdansatış və pərakəndə ticarət, ərzaq məhsullarının keyfiyyətinə olan tələbat, ticarət, iaşə və xidmət sahəsində qüvvədə olan qaydalar və onların icrası üzrə məsuliyyət, habelə müasir marketinq fəaliyyətində mühüm yer tutan alıcı-satıcı münasibətlərinin əhəmiyyəti mövzusunda mühazirələri dinləyəcəklər.

Naxçıvan Biznes Mərkəzi tərəfindən təşkil edilən kursun keçirilməsində əsas məqsəd sahibkarlıq subyektlərinin maarifləndirilməsi, bu sahədə biliklərin təkmilləşdirilməsindən ibarətdir. Sonda kursu müvəffəqiyyətlə bitirənlərə mərkəz tərəfindən sertifikatlar veriləcəkdir.

Qeyd edək ki, ötən il muxtar respublikada topdan və pərakəndə satışla məşğul olan 155, ictimai-iaşə xidməti sahəsində çalışan 23 nəfərə belə sertifikatlar verilib.

**Xəbərlər şöbəsi**



*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

# Yaranması Naxçıvan ərazisi ilə bağlı olan yallılar xalq ruhunu oxşayan müxtəlif çalarlarla zəngindir

*Onlardan biri milli geyim qalereyamızı və qadın zinət əşyalarını gənc nəslə tanıdan "Tənzərə" yallısıdır.*

Ta qədim zamanlardan böyük inkişaf yolu keçib gələn və zəngin irsə malik olan milli geyimlərimiz və qadın zinət əşyaları xalqımızın bədii-estetik dünyagörüşünü, onun maddi-mədəniyyət və məişət ənənələrini yaşadan ən gözəl nümunələrdəndir. Həmin sənət nümunələrində xalqın istedadı, zövqü, adət-ənənəsi, etnoqrafiyası və sair parlaq şəkildə öz əksini tapmaqdadır. Azərbaycan milli geyimləri və qadın zinət əşyaları görkəmli şairlərdən Əfzələddin Xaqaninin, Nizami Gəncəvinin, İmadəddin Nəsiminin, Məhəmməd Füzulinin, Molla Pənah Vaqifin, Seyid Əzim Şirvaninin və başqa ədiblərin əsərlərində dönə-dönə tərənnüm olunmuşdur. Milli geyim və zinət əşyaları haqqında məlumatlara vaxtilə ölkəmizdə olmuş əcnəbi alim və səyyahların, tarixçilərin əsərlərində də rast gəlmək mümkündür. Çox maraqlıdır ki, hələ IX-X əsrlərdə ölkəmizin başqa bölgələri ilə yanaşı, Naxçıvanda da olmuş fars və ərəb səyyahlarının gündəliklərində bu yerlərin sənətkarlarından, onların mahir əlləri ilə qiymətli materiallardan hazırlanmış incə, nəfis qadın zinət əşyalarından danışılır.

Ənənəvi milli geyimlər və zinət əşyalarına televiziya və teatr tamaşalarında, tarixi kinofilmlərdə, eləcə də folklor kollektivləri üzvlərinin çıxışlarında, bayram və el şənliklərində rast gəlirik. Yallı ifaçılarının geydikləri al-əlvan, incə, nəfis geyimlər – çəpkən, vəznəli və çərkəzi çuxa, eşmək, baharı, küləcə, zərif biçimli araqçın, kəlağayı və digər yüngül baş örtükləri, baş, boyun, qol və barmağa, eləcə də libaslara bənd edilən sadə zinət əşyaları milli geyim qalereyamızı gözlərimiz önünə gətirir, onun nümunələri ilə bizləri tanış edir. Bu geyim və zinət əşyalarını tanıdan yallılardan biri də "Tənzərə" yallısıdır. "Tən" və "zər" komponentlərindən ibarət olub, "yazı" və "zər" – bahalı zinət əşyaları mənasını daşıyan bu yallını ağbirçək nənələrimiz ifa edərkən yaxalarına, boyunlarına, qol və barmaqlarına bütün daş-qaşlarını, zinət əşyalarını vurar, ənənəvi naxış sənətinin müxtəlif növlərində hazırlanan enli kəmərlər bağlayaraq aram-aram oynayardılar. Yallı oynayan qadınların kəmərlərindən onların hansı təbəqəyə mənsub olduğu, məşğuliyyəti, hətta yaşını belə, bilmək olurmuş. Milli geyim qalereyamızı və zərif qadın bəzək əşyalarını bizə çatdıran "Tənzərə"ni üç qrupun oynadığı mənbələrdə qeyd edilir. Buradan belə bir nəticəyə gəlmək olar ki, ən qədim yallılardan sayılan "Tənzərə" Naxçıvan milli geyim və qadın zinət əşyalarının məcmusunu təşkil edir.

Xalq ruhuna oxşayan çalarlarla zəngin olan yallıların sırasında "Köçəri" yallısının da xüsusi yeri vardır. Hərəkət düzümü, ifa tərzi ilə seçilən əmək janrlı yallılardan sayılan "Köçəri" yaylaq yallısıdır. Əski çağlarda Naxçıvanda yaşayan əhalinin maldarlıqla məşğul olan hissəsinin təsərrüfatlarını dağlıq ərazilərdəki yaylaqlarda inkişaf etdirmək məqsədilə həmin ərazilərə köç edən zaman köçün müəyyən məqamlarını – yaylağa aparılacaq əşyaların tədarük olunmasını, onların heyvanlara yüklənməsini, ağır yük götürən heyvanların çətin və dolayı, daşlı-kəsəkli yollarla hərəkətini, uzun-uzadı əzablı yolları keçəndən sonra məskən salacaqları yaylaq yerində çadır-alaçıqların qurulmasını, təsərrüfatın çəkilən zəhmət sayəsində ruzi-bərəkətli olmasını, bundan sevinən insanların şən əhval-ruhiyyəli anlarını tərənnüm edən cizgilər yallı ifaçılarının hərəkətləri ilə tamaşaçıya çatdırılırdı.

Zaman ötdükcə xalqımızın mədəniyyət incisi olan yallılar əcdadlarımızın ictimai həyat tərzinin, bədii-estetik zövqünün ayrılmaz tərkib hissəsinə çevrilmiş, gözəllik və incəliyin, həyatsevərlik və sevincin, mərdlik və mübarizliyin, vətənpərvərlik və insanpərvərliyin mükəmməl bədii ifadəsi kimi məşhurlaşmışdır.

Mənbələrdə insanların dağ aşırımlarında yaşadıqlarından və ehtiyac üzündən vəhşi heyvanları əhliləşdirmələri haqqında məlumatlara rast gəlinir. Və qeyd edilir ki, bu heyvanlardan ilki at, qoyun və dəvə olmuşdur. Dəvənin ağır yük götürə bilməsi, soyuğa, istiyə, susuzluğa, aclığa dözümlülüyü, sahibinə sədaqətli olması onun məişət üçün olduqca əlverişli heyvan olması fikrinin formalaşması ilə nəticələnmişdir. Mənbələrdə Şərur bölgəsində "Kərimbərli-Kəsəməni" adlanan qədim yaşayış yerinin olması, burada insanların dəvə saxlamaları barədə məlumata rast gəlmək mümkündür. Məlumatlarda həmçinin dəvənin, adətən, yolu kəsə gedə bilməsi faktı da diqqətə çatdırılır. Həmin prosesi özündə ehtiva edən yallılardan birinə "Hoynərə" ("Hoydu, nərim") adının verilməsi də məhz buradan qaynaqlanır. İki sözün – "hoy" və "nər"in birləşməsindən əmələ gələn "Hoynərə" yallısında "hoy" çarvadarın dəvəni haylayarkən dediyi nida, "nər" isə "erkək dəvə" deməkdir. Sallağı oturma və qalxma hərəkətləri ilə ifa edilən, hərəkətdə olan dəvə karvanının yerişini xatırladan "Hoynərə" yallısına bu adın verilməsi həm də çətinliyə düşəndə nərə çəkən dəvəyə insanların sitayişi ilə bağlı olmuşdur.

Şərur yallılarının şahı sayılan "Urfanı" yallısı isə əzəmət, vüqar, mərdlik və qəhrəmanlıq hərəkətləri ilə zəngin olan yallılardandır. Adı "ruh" sözündən götürülən bu yallı ifa edilərkən yallı üzvlərinin bütün bədən əzaları hərəkət edir. Çəld və çevik hərəkətlərlə ifa olunan yallıda yalnız kişilər iştirak edirlər. Mürəkkəb ifa hərəkətləri ilə zəngin olan "Urfanı" yallısına qadınlar və qızlar qoşula bilmirlər. Bu yallının əski çağlarda varlı, imkanlı adamlar tərəfindən ifa edildiyi mənbələrdə göstərilir. İfa xarakteri ilə seçilən "Urfanı"nı cavanlar toy şənliklərində öz məharət, qabiliyyət, istedad və bacarıqlarını nümayiş etdirmək məqsədilə sifariş verərək ifa edirmişlər. Yallının iki ifa variantı bu günümüzə qədər gəlib çatmışdır.

Yallıların xoreoqrafiyasına görə, iki, üç və dörd addımlı hərəkətlərdən ibarət olması Naxçıvan ərazisində yayılan yallıları ölkəmizin digər ərazilərində oynanılan yallılardan fərqləndirən əsas xüsusiyyətlərindəndir. Tədqiqat materiallarında göstərilir ki, nadir hallarda ifa olunan "Üçayağı" və "Üçaddım" yallı növləri də Naxçıvanda yaranmışdır. Bu yallılardan başqa, balaban və nağara, yaxud zurna və nağara kimi musiqi alətlərinin müşayiəti ilə ifa olunan "Köçdü balaban" ("Köşki balaban") yallısı isə qədim Ordubad torpağının suyunu içmiş, havasını udmuş insanların tərənnüm üsulu olmuşdur.

Haqqında söhbət açılan yallılardan görünür ki, Naxçıvanda yaşayan ulu əcdadlarımız əsrlər boyu rəngarəngliyi və coşqunluğu ilə insanı valeh edən yallılar yaratmışlar.

**Nizami ƏZİZƏLİYEV**

## Azərbaycan çempionatına Şərur komandası yollanır

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin birgə təşkil etdiyi "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülük üzrə Naxçıvan Muxtar Respublika birinciliyinin final mərhələsinə yekun vurulub.

Şərur, Sədərək, Babək, Ordubad, Culfa, Şahbuz, Kəngərli rayonları və Naxçıvan şəhər məktəblilərinin mübarizə apardığı yarışda hər komanda 5 nəfərdən ibarət heyət formalaşdırıb. Birincilik uğrunda mübarizədə məktəblilər yarışın reqlamentinə əsasən, 6 növdə qüvvələrini sınayıblar. İlk olaraq, onlar 100 metr məsafəyə qaçmaqda sürətlərini nümayiş etdiriblərsə, 2000 metrdə daha çox onların dözümlülüyü yoxlanılıb. Digər növlərdə isə məktəbli gənclər daha çox fiziki güclərinə bel bağlayıblar. Əvvəlcə turnikdə dartınan yarış iştirakçıları ardınca idman nərdivanını keçmə və paralel qollarda qolların bükülüb-açılması mərhələsində komandalara xal qazandırmağa çalışıblar. Son olaraq, qumbaraatma mərhələsini də uğurla başa vuran iştirakçılar birinciliyin qalibinə şahidlik ediblər. Belə ki, cari ildə "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülük üzrə birinciliyin final mərhələsinin qalibi Şərur komandası olub. Komanda bu gün Mingəçevir şəhərində keçiriləcək Azərbaycan çempionatında Naxçıvan Muxtar Respublikasını təmsil edəcəkdir.

**Ceyhun MƏMMƏDOV**

## Musiqi məktəbləri yekun konsertinə hazırlaşır

Aprelin 21-dən başlayaraq muxtar respublikamızda fəaliyyət göstərən uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri şagirdlərinin Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunacaq yekun konsertinin hazırlıq mərhələsinə başlanmışdır. Yekun konsertini yüksək səviyyədə keçirmək üçün Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyində təşkilat komitəsi yaradılmışdır. Mədəniyyət və Turizm şöbələrinin tabeliyində olan uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərindən yekun konsertində iştirak edəcək şagirdlər seçmə üsulu ilə müəyyənləşdirilmişdir.

Bu mərhələlər başa çatdıqdan sonra may ayının 6-da Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində yekun konserti təşkil olunacaqdır.

**Əli RZAYEV**

*Gənc istedadlarımız*

## Yeni sənət zirvəsinə doğru...

İstedad Allahın bir vergisidir. Ancaq bu istedadın üzə çıxarılması və istiqamətləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Sevindirici haldır ki, bu gün muxtar respublikamızda istedadlı gənclərin üzə çıxarılması istiqamətində çox mühüm tədbirlər həyata keçirilir, onların istedadının dəstəklənməsi, bilik və bacarıqlarının inkişaf etdirilməsi hər zaman diqqət mərkəzində saxlanılır. Həyata keçirilən tədbirləri sadalayarkən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında" 2012-ci il 31 yanvar tarixli Fərmanını xüsusilə qeyd etməliyik. Fərmana əsasən, Naxçıvan Muxtar Respublikası gənc istedadlarının "Qızıl kitabı" təsis olunmuş, "Qızıl kitab"a adları yazılmış gənc istedadlar üçün təqaüdün verilməsi qaydaları təsdiq edilmişdir. Gənc istedadların xüsusi təqaüdə layiq görülməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 25 sentyabr tarixli Sərəncamına əsasən, incəsənət və idman sahələrində fərqlənən üç nəfər gəncin adı "Qızıl kitab"a salınaraq onlara müəyyən edilmiş miqdarda aylıq təqaüdün verilməsi təmin olunmuşdur. Öz növbəsində, yaradıcı gəncliyimiz də bu diqqət və qayğı müqabilində yeni-yeni uğurlara imza atır, ölkəmizin mədəniyyətini, incəsənətini, idmanını müxtəlif tədbirlərdə layiqincə təmsil edirlər. Dövlətin xüsusi diqqəti gənclərin cəmiyyətdə uğur qazanmasına, nailiyyətlərinin davamlı olmasına stimul verir, onları daha da ruhlandırır.

Bu yazımızda da həmin istedadlı gənclərdən birini – Xaliq Həsənovu oxucularımızla daha yaxından tanış edəcəyik. Qeyd edək ki, "Qızıl kitab"a salınan üç nəfərdən biri olan bu gəncimiz Culfa Rayon Uşaq Musiqi Məktəbinin şagirdidir. Xanəndəlik üzrə təhsil alan Xaliqdə həssas musiqi duyumu, gözəl musiqi qavrayışı hələ uşaq yaşlarından özünü büruzə verib. Onu da qeyd edim ki, 14 yaşlı Xaliqdə bu istedad heç də təsadüfi deyil. Çünki Xaliqin atası, bacı və qardaşları da musiqiçidirlər.

Məlahətli səsi ilə hamını heyran qoyan Xaliq 2006-cı ildən musiqi məktəbində təhsil alır. Camaldın kənd tam orta məktəbinin VIII sinif şagirdi Xaliq Həsənov həm də dərs əlaçısıdır.

Gənclərin və yeniyetmələrin mənəvi aləminin müəyyənləşməsində mühüm əhəmiyyət kəsb edən musiqi təliminin inkişafı, ilk növbədə, musiqi təhsili ilə bağlıdır. Musiqi təhsilinin yüksək səviyyəyə çatmasında musiqi müsabiqələrinin keçirilməsi çox mühüm əhəmiyyət kəsb edir; "rəqabət" hissi aşılanır, əsl sənət yarışı onların ifaçılıq səviyyəsinin yüksəlməsinə, daxilən zənginləşməsinə səbəb olur. Xaliq də musiqi məktəbinin, rayon Mədəniyyət və Turizm Şöbəsinin keçirdiyi tədbirlərdə çıxışlar edir, rayon və muxtar respublika səviyyəli yarışlara qatılır. Bu yarışlarda da uğurlar qazanır.

Xaliqin müəllimləri onun gələcəyinə böyük ümid bəsləyirlər. Müəllimi Səbuhi Quliyevin dediklərindən:

– Xaliq bizim istedadlı gənclərimizdəndir. Bu istedadlı gəncin parlaq gələcəyi var. Onun adı "Qızıl kitab"a düşəndə müəllimi olaraq çox sevindim. Bir müəllim kimi bu gün fəxr edirəm. Yaşının az olmasına baxmayaraq, yüksək səhnə mədəniyyətinə malik, daim öyrənmək həvəsilə çalışan istedadlı gəncdir. İnanıram ki, yaxın gələcəkdə Azərbaycan muğam sənətinə və səhnəsinə yeni bir səs gələcək. O səs ki biz hər dəfə o səsi eşidəndə fəxr edəcəyik.

Alim Qasımov, Ağaxan Abdullayev dinləyicisi olan Xaliq gələcək arzularından da danışdı:

– Ən böyük arzum ali təhsil almaqdır. Bunun üçün də var qüvvəmlə çalışıram. Xanəndəlik üzrə müəllim olmaq istəyirəm. Ona görə də Azərbaycanın zəngin mədəniyyətinin və yüksək yaradıcı gücünün göstəricisi olan muğamlarımızın incəliklərini öyrənməliyəm.

Püxtələşməyə doğru can atan gənc ifaçı Xaliq Həsənov təkcə muğam oxumur, eyni zamanda musiqinin başqa janrlarında da özünü sınayır. Onun məqsədi professional musiqiçi kimi yetişməkdir. İnanırıq ki, gənc xanəndənin arxada qalan illərdə açdığı yaradıcılıq cığırı onu sənət zirvələrinə aparan yola qovuşduracaq.

**Sara ƏZİMOVA**


### Bildiriş

"Hikmət" Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN-0200101091) möhür və künc ştampı olmadığından və fəaliyyəti dayandırıldığından ləğv olunur.


### Allah rəhmət eləsin

AMEA Naxçıvan Bölməsinin kollektivi daxili işlər naziri Əhməd Əhmədova, qardaşı **ABBASIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Şərq qapısı" qəzetinin kollektivi iş yoldaşları Məhəbbət Mirzəyevaya, qardaşı **XUDAQULUNUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Dövlət Filarmoniyasının direktoru Elman Əliyev və filarmoniyanın kollektivi Əhməd Əhmədova, qardaşı **ABBASIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Filarmoniyasının direktoru Elman Əliyev və filarmoniyanın kollektivi iş yoldaşları Həsən Ağasoya, qayınanası **SONA XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun kollektivi iş yoldaşları Məhsəti İsmayıla, əzizləri **RÖVNƏQ və SUNAYIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 377